| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | ART103, Rəsm 1, 6 AKTS |
| | **Departament** | Memarlıq və dizayn departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Həsənov Həsənağa Ədalət oğlu<br>Məmmədov İskəndər Aleksandr oğlu |
| | **E-mail:** | hasan.hasanaga@khazar.org<br>isgandar.mammadov@khazar.org |
| | **Mühazirə otağı/Cədvəl** | Neftçilər korpusu, 104-cü otaq |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | - | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Skakova A.G. Rəsm və rəngkarlıq: SPO.-M. üçün dərslik: Yurayt, 2019<br>2. Makarova M.N. Rəsm və perspektiv. Nəzəriyyə və təcrübə. M.: "Akademik layihə", 2016<br>3. Azərbaycan incəsənəti, təsviri sənət, dekorativ-tədbiqi sənət. memarlıq-ensiklopedik məlumat kitabı, -Bakı: “Letter-press”, c.1, -2010, -81S; c.2-3, -2011. -200S<br>4. R.Əfəndi. «Azərbaycan incəsənəti». Bakı, 2007<br>5. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007 | |
| **Kursun təsviri** | “Rəsm” fənninin əsas məqsədi realistik obrazın əsas anlayışlarını nəzərdə tutur. Fənndə obyektin üçölçülü fəzasının qavranılmasının xüsusiyyətləri və onun düz vərəqə ötürülməsi prinsipləri, ayrı-ayrı təsvirlərin öyrənilməsi kimi məsələlərə əsas diqqət yetirilir. | |
| **Kursun məqsədləri** | **Rəsm** fənni tələbələrin estetik dünyagörüşünü və hissiyyat aləmini inkişaf etdirmək, hadisələri bədii təsvir vasitələri ilə ifadə etmək bacarıqlarının mənimsədilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ətraf aləmdə baş verən hadisələrin tələbələrə bədii təsvirlər (görüntülər, obrazlar) vasitəsi ilə praktiki şəkildə çatdırılması onlarda gerçəkliyi daha dərindən dərk etməyə şərait yaradaraq klassik akademik rəsm qaydalarını müəyyənləşdirmədir: hər hansı bir obyektin düzgün təsvirini etmək bacarığını, o cümlədən kömürlə rəsm çəkmək bacarığını əldə etmək. | |

| | | | |
|---|---|---|---|
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursun sonunda tələbələrin aşağıdakı bilik və bacarıqları əldə etməsi gözlənilir:<br>• Təsviri sənətin müxtəlif növlərinin ifadə vasitələrinin xüsusiyyətlərini biləcək;<br>• Realist təsvirin əsası kimi təbiətdən rəsm çəkmək bacaracaq;<br>• İncəsənət formasının qurulması nümunələri və onun qavrayış xüsusiyyətləri haqqında bilikləri biləcək;<br>• Tələbələr gördükləri obyektlər qələmlə təsvir etməyi bacaracaq;<br>• İşıq və kölgə ilə rəsmdə təsvir etməyi biləcək;<br>• Əsas rəsm texnikasından və materiallardan istifadə etməyi bacaracaq. | | |
| **Tədris metodları** | Mühazirə | - | |
| | Qrup müzakirəsi | - | |
| | Praktiki tapşırıqlar | + | |
| | Praktiki məsələnin təhlili | + | |
| | Digər | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Davamiyyət** | | 5 bal |
| | **Aktivlik** | | 10 bal |
| | **Tapşırıq 1** | | 10 bal |
| | **Tapşırıq 2** | | 10 bal |
| | **Aralıq imtahanı** | | 25 bal |
| | **Tapşırıq 3** | | 10 bal |
| | **Final imtahanı** | | 30 bal |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır. Tələbələr müəyyən səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərin buraxılması haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>**Tapşırıq**<br>Tapşırıqlara ayrılan 30 balın 20 balı aralıq imtahanına qədər işlənilən 2 tapşırıq üçün, qalan 10 bal isə aralıq imtahanından sonra finala qədər işlənilən 1 tapşırıq üçün nəzərdə tutulur. Aktivliyə ayrılan 10 bal isə dərs zamanı tələbənin aktivliyi və ev tapşırıqlarına qeyd olunacaq.<br>**İmtahanlar**<br>Aralıq və final imtahanı hər ikisi təcrübi şəkildə keçirilir. Belə ki, imtahan üçün ayrılan 3 saat ərzində tələbələr qurulan natürmortu qara qələmlə təsvir edib və rəng olaraq sulu boyadan istifadə edərək tamamlamalıdırlar. Nəticədə bütün işlər kodlaşdırılıb və kurs müəlliminin tərəfindən dəyərləndirilir. Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.<br>**Fənni bitirmək qaydası**<br>Univesitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 % və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər. | | |

| | |
|---|---|
| | **İmtahan qaydalarının pozuntuları**<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.<br>**Tələbənin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini pozmağa və ya qeyri-etik hərəkətlər etməyə, həmçinin tələbələrin icazəsiz müzakirələrinə və mobil telefondan istifadəsinə icazə verilmir. |

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1 | | Rəsm tarixi ilə tanışlıq<br>Realist təsvirin əsası kimi.<br>1. Vizual həssaslığı artırmaq<br>2. Rəsm işləməyin qaydaları və rəsm üçün ləvazimatın növləri **Birinci tapşırıq:** Gipsdən iki və ya üç həndəsi cisimlərin natürmortunun təsviri | Tapşırıq:<br>Gipsdən iki və ya üç həndəsi fiqurun (kub, sfera, prizma) natürmortunu quraraq, A3 ölçülü vərəq üzərində qrafit qələmlə təsvir edin. Kompozisiyanın düzgün yerləşdirilməsinə və ölçülərin proporsiyasına diqqət yetirin.<br>Ədəbiyyat:<br><br>1· Skakova A.G. Rəsm və rəngkarlıq. - M.: Yurayt, 2019. – Səh. 10-25.<br>2· Makarova M.N. Rəsm və perspektiv. Nəzəriyyə və təcrübə. - M.: "Akademik layihə", 2016. – Səh. 15-30. |
| 2 | | 1. Nöqtə və xəttin müxtəlif növləri<br>2. Xətlər vasitəsi ilə müxtəlif əşyaların işlənməsi<br>3. Ölçü götürməyin qaydası rəsm icrasının ilk mərhələdə təsviri.<br>4. Material - qrafit qələm. Ölçü – A3 vərəq. | Tapşırıq:<br>Müxtəlif növ xətlər (düz, əyri, kəsik, sərbəst) ilə sadə məişət əşyalarını (stəkan, kitab, qab) təsvir edin. Ölçü götürmə qaydalarını tətbiq edərək obyektin proporsiyalarını dəqiq ötürün.<br>Ədəbiyyat:<br><br>1· Skakova A.G. Rəsm və rəngkarlıq. - M.: Yurayt, 2019. – Səh. 26-40. |
| 3 | | Perspektiva vasitəsi ilə həndəsi formaların işlənilməsi naturmortun komponovkasının qurulması | Tapşırıq:<br>Bir nöqtəli və iki nöqtəli perspektiv qaydalarından istifadə edərək, kub və silindrdən ibarət natürmort kompozisiyası qurun və təsvir edin.<br>Ədəbiyyat:<br><br>2· Makarova M.N. Rəsm və |

| | | | |
|---|---|---|---|
| | | | perspektiv. Nəzəriyyə və təcrübə. - M.: "Akademik layihə", 2016. – Səh. 45-65. |
| 4 | | 1. Ağ-qara tonlarının təbiətdə olan rənglərlə tətbiq edilməsi<br>2. İşıq-kölgə vasitəsi ilə rəsmdə məcazi həcm yaratmaq<br>3. İşıq və kölgə qanunları haqqında: işıq, yarım ton, kölgə, refleks, kölgələrin düşməsinin təsviri | Tapşırıq:<br>Tək bir obyekti (məsələn, gips kub) müxtəlif işıqlandırma şəraitində təsvir edin. İşıq, yarımton, kölgə, refleks və kölgənin düşmə qanunlarını nümayiş etdirin.<br>Ədəbiyyat:<br><br>1· Skakova A.G. Rəsm və rəngkarlıq. - M.: Yurayt, 2019. – Səh. 50-70. |
| 5 | | Gipsdən iki və ya üç həndəsi cisimlərin natürmortunun yekunlaşması | Gipsdən həndəsi cisimlər natürmortunun yekunlaşdırılması.<br><br>Tapşırıq:<br>Əvvəlki tapşırıqlarda işlədiyiniz gips fiqurların natürmortunu detallı şəkildə işləyərək yekunlaşdırın. Tonları tam diferensiasiya edin.<br>Ədəbiyyat:<br><br>3· Azərbaycan incəsənəti, təsviri sənət, dekorativ-tədbiqi sənət. Ensiklopedik məlumat kitabı. Cild 1. - Bakı: "Letter-press", 2010. – Səh. 30-50 (təsviri sənət nümunələri). |
| 6 | | **İkinci tapşırıq:** Fonda kiçik əşyalar olan gipsdən natürmortun təsviri | Gips fiqurları fonunda müxtəlif kiçik əşyalar (məsələn, parça qırışları, meyvə) olan bir natürmort qurun və təsvir edin. Kompozisiyanın tamlığına diqqət yetirin.<br>Ədəbiyyat:<br><br>4· R.Əfəndi. «Azərbaycan incəsənəti». Bakı, 2007. – Səh. 60-80 (kompozisiya prinsipləri). |
| 7 | | Rəsm icrasının ilk mərhələdə təsviri. Material - qrafit qələm. Ölçü – yarı planşet - 35x50cm vərəq. | 35x50 sm ölçülü vərəq üzərində mürəkkəb bir natürmortun (bir neçə obyekt) ilkin eskizini və ton işarələməsini hazırlayın.<br>Ədəbiyyat:<br><br>2· Makarova M.N. Rəsm və perspektiv. Nəzəriyyə və təcrübə. - M.: "Akademik layihə", 2016. – Səh. 70-85. |

| | | | |
|---|---|---|---|
| | | | |
| 8 | | **Aralıq imtahanı** | |
| 9 | | Rəsmdə tekstura yaratmaq və tekstura vasitəsi ilə müxtəlif materialların işlənməsi.<br>İşıq, yarım ton, kölgə, refleks, kölgələrin düşməsinin təsviri | Taxta, metal, parça kimi müxtəlif fakturalı əşyalardan ibarət natürmort qurun və onların fakturalarını qrafit qələmlə dəqiq ötürün.<br>Ədəbiyyat:<br><br>1· Skakova A.G. Rəsm və rəngkarlıq. - M.: Yurayt, 2019. – Səh. 85-100. |
| 10 | | Tapşırığın yekunlaşması | Həftə 9-da başladığınız müxtəlif fakturalı natürmortu detallı şəkildə işləyib yekunlaşdırın.<br>Ədəbiyyat: |
| 11 | | **Üçüncü tapşırıq:** Parça qatlarının nümunəsi naturmotda işlənməsi. | Parça qatlarından ibarət bir natürmort qurun. Qıvrımların formasını, işıq-kölgə effektlərini və fakturanı dəqiq təsvir edin. |
| 12 | | Rəsmdən əvvəl qıvrımlar, qıvrımların təbiəti (sərbəst asma, bükmə, uzanma) haqqında anlayışın izahı və fon müstəvisinin hazırlanması | Praktiki işin davamı<br><br>2· Makarova M.N. Rəsm və perspektiv. Nəzəriyyə və təcrübə. - M.: "Akademik layihə", 2016. – Səh |
| 13 | | Naturmortun komponovkasının qurulması | Praktiki işin davamı |
| 14 | | Rəsmdə tekstura yaratmaq və tekstura vasitəsi ilə müxtəlif materialların işlənməsi.<br>İşıq, yarım ton, kölgə, refleks, kölgələrin düşməsinin təsviri | Praktiki işin davamı<br><br>5· Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007. – Təsviri sənət bölməsi, səh. 100-120 (Azərbaycan rəssamlarının faktura işləmə texnikaları). |
| 15 | | Tapşırığın qəbulu | |
| **Final imtahanı** | | | |

**Təsdiq edir:** Dos. Abbasova Ş.A.______________________

Memarlıq və dizayn departamentinin rəhbəri